AZƏRBAYCAN
BEYNƏLXALQ BANKI

*Müasir Dövlət Bankınız*

# “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin dividend

# S İ Y A S Ə T İ

## Mündəricat


1. Ümumi müddəalar
2. Əsas anlayışlar
3. Siyasətin əsas prinsipləri
4. Dividendlərin elan edilməsi və ödənilməsinin əsas müddəaları
5. Dividendlərin ödənilməsi
6. Dividendlərin ödənilməsinə məhdudiyyətlər

# 1. Ümumi müddəalar

1.1. "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin dividend siyasəti (bundan sonra – Siyasət) "Azərbaycan Beynəlxalq Bankı" ASC-də (bundan sonra – Bank) dividend siyasətinin əsas prinsiplərini, dividendlərin elan edilməsi və ödənilməsi qaydalarını, dividendlərin ödənilməsi ilə əlaqədar məhdudiyyətləri, habelə bu dividendlərin ödənilməsinin həyata keçirilməsi ilə əlaqədar digər zəruri məsələləri müəyyən edir.

1.2. Siyasət Azərbaycan Respublikasının Mülki Məcəlləsinin, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununun və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının "Banklarda korporativ idarəetmə Standartları"nın müddəaları əsasında hazırlanmışdır.

1.3. Siyasət Bankın korporativ idarəetmə sisteminin bir hissəsi olub, dividend ödənişlərinin edilməsi zamanı Bank və onun səhmdarlarının maraqlarının balanslaşdırılmasına və səhmdarların qanunvericilik və bankdaxili qaydalarla müəyyən edilmiş hüquqlarının gözlənilməsinə əsaslanır.

# 2. Əsas anlayışlar

2.1. Siyasətdə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **dividend** - Bankın səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi, o cümlədən Bank ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi, habelə səhmlərin (payların) xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödəniş. Bankın ləğvi ilə bağlı əmlakın bölüşdürülməsi nəticəsində əldə edilən gəlir (bölüşdürülməmiş mənfəət hesabına formalaşan əmlak istisna olmaqla), həmçinin səhmdarların səhmlərinin faiz nisbətini dəyişdirməyən səhmlərin bölüşdürülməsi, səhmlərin (hissələrin, payların) nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı edilən ödənişlər dividend sayılmır;

2.1.2. **dividend ödənişi** - dividend almaq hüququ olan şəxslərə müvafiq pul məbləğində ödənişin həyata keçirilməsi;

2.1.3. **səhmdar** - qanunvericiliyə uyğun olaraq Bankın bir və ya bir neçə sayda səhmlərinin mülkiyyətçisi olan fiziki və hüquqi şəxs(lər);

2.1.4. **səhmin sahibi** - dividendin ödənilməsi barədə Səhmdarların Ümumi Yığıncağının (bundan sonra ""SÜY") qərarında qeyd olunan tarixdə Bankın səhmlərinin mülkiyyətçisi olan dividend almaq hüququ olan səhmdar(lar);

2.1.5. **dividendlərin ödənilməsi haqqında qərar** - Bankın SÜY-ün səhmdara dividend ödənişinin həyata keçirilməsi barədə qərarı;

2.1.6. **xalis mənfəət** - yerli və beynəlxalq standarlara uyğun hazırlanmış hesabatlara əsasən müəyyən edilən vergi və digər məcburi ödənişlər ödənildikdən sonra Bankın sərəncamında qalan gəlir;

2.2. Bu maddədə qeyd edilən anlayışlar yalnız bu Siyasətin məqsədləri üçün istifadə edilir.

2.3. Bu Siyasətdə istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının mövcud qanunvericilik aktları ilə müəyyənləşdirilmiş mənaları

## 3. Siyasətin əsas prinsipləri

3.1. Siyasət aşağıdakı prinsiplərə əsaslanır:

3.1.1. **qanunçuluq** - dividendlərin hesablanması, ödənilməsi (elan olunması) prosesinin qüvvədə olan qanunvericiliyə, eləcə də qanunvericiliyə müvafiq olaraq qəbul edilən digər normativ aktlara uyğun təşkili və icrası;

3.1.2. **şəffaflıq** - dividendlərin hesablanması, ödənilməsi (elan olunması), habelə ümumilikdə Siyasətin həyata keçirilməsində şəffaf mexanizmin qurulması;

3.1.3. **ədalətlilik** - dividendlərin hesablanması, onların məbləği və ödənilməsi qaydaları haqqında məlumatların əldə edilməsi üçün bütün səhmdarların Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində bərabər hüquqlarla təmin edilməsi, Bank və onun səhmdarlarının maraqlarının optimal uyğunluğuna nail olunması;

3.1.4. **dayanıqlı inkişaf** - Siyasətin mütəmadi yenilənməsi və Bankın strateji məqsədlərinin dəyişməsi halında ona yenidən baxılması, eləcə də Bankın investisiya cəlbediciliyinin artırılması, kapitallaşdırılması və gəlirliliyinin yüksəldilməsi zərurəti.

## 4. Dividendlərin elan edilməsi və ödənilməsinin əsas müddəaları

4.1. Dividendlərin ödənilməsi haqqında qərarla (elanla) dividendlərin ödənilməsi zamanı səhmlərin sahibləri ilə əlaqədar reyestr məlumatlarının əldə olunacağı tarix və səhm üzrə hesablanılmaqla ödəniləcək dividendlərin həcmi müəyyən edilir.

4.2. Dividendlərin ödənilməsinə (və ya ödənilməməsinə) dair qərar verilməsi Bankın hüququdur. Bank maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olaraq dividendləri hər rüb və ya ildə bir dəfə ödəyə bilər.

4.3. Bankın səhmdarlarına dividendlər aşağıdakı əsaslarla ödənilir:

4.3.1. qanunvericiliyə uyğun qaydada hazırlanmış maliyyə hesabatları ilə müəyyən edilən Bankın xalis gəlirinin mövcudluğu;

4.3.2. dividend ödənişi ilə bağlı qanunvericilikdə və bu Siyasətdə nəzərdə tutulmuş məhdudiyyətlərin olmaması;

4.3.3. dividend ödənişinin həcmi barədə Müşahidə Şurası tərəfindən SÜY-yə tövsiyənin verilməsi;

4.3.4. SÜY tərəfindən dividend ödənişlərinin ödənilməsi haqqında qərarın qəbul edilməsi.

4.4. Bankın dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır və 30 (otuz) gün müddətində icra edilir. Bank dividendlərin ödənilməsi üzrə öhdəliyini dividendlərin ödənilmə müddəti ərzində istənilən gün yerinə yetirmək hüququna malikdir. Bank hesablanmış dividendlərin ödənilməsi müddətləri üzrə ayrı-ayrı səhmdarlara hər hansı üstünlük vermir.

## 5. Dividendlərin ödənilməsi

5.1. Dividendlərin ödənilməsi haqqında qərar SÜY-ün müvafiq maliyyə dövrünün nəticələrinə həsr olunan ilk növbəti iclasında qəbul edilir. Dividendlərin ödənilməsinə dair SÜY-ün qərarı olmadan Bank dividendləri ödəyə, səhmdarlar isə onların ödənilməsini tələb edə bilməz.

5.2. İdarə Heyəti elan olunmuş dividendlərin Mərkəzi Depozitar Mərkəzinin təqdim etdiyi SÜY-ün qərarında qeyd olunan tarixə səhmdarların siyahısında (reyster məlumatlarında) qeyd olunan səhmdarlara vaxtında və tam ödənilməsini təmin edir.

## 6. Dividendlərin ödənilməsinə məhdudiyyətlər

6.1. Dividendlərin elan edilməsi, onların ödənilməsi haqqında qərarın qəbul edilməsi, habelə dividendlərin ödənilməsi zamanı Bank qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş məhdudiyyətləri nəzərə alır.

6.2. Bankın xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, Bank dividendləri elan edə və ödəyə bilməz. Bank yalnız dividendlərin ödənilməsinə məhdudiyyətlər aradan qaldırıldıqdan sonra müəyyən müddət üzrə xalis mənfəətdən dividendləri ödəyə bilər.